# Azərbaycanın yaratdığı Brüssel sülh gündəliyi hədəfinə yetişəcək



***Aprelin 6-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ermənistan baş naziri Nikol Paşinyanla 5 saata qədər davam edən Brüssel görüşünün nəticələri kifayət qədər müsbət oldu. Əldə olunan razılaşmaları Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətlərin normallaşması baxımından yeni və dinamik mərhələnin başlanğıcı hesab etmək olar. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel görüşdən dərhal sonra mediaya verdiyi açıqlamada rəsmi Brüsselin mövqeyini ifadə edərək görüşdə Azərtbaycan–Ermənistan danışıqlarının əməli müstəviyə yönləndirildiyi tərəqqiyə nail olunduğunu bildirdi. Görüşün müsbət nəticlərini və əldə edilən razılaşmanı aşağıdakı kimi qruplaşdırmaq olar:***

Əvvəla, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanması və bununla bağlı işçi qrupun yaradılması qərara alınıb. Məsələ ilə əlaqədar Azərbaycan və Ermənistan xarici işlər nazirliklərinə müvafiq təlimatlar verilib. Sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Sözügedən sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür.

İkincisi, tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması, ilk növbədə, sərhədlərin delimitasiya prosesinə başlaması barədə razılıq əldə olunub. Bunun nəticəsi olaraq sərhəddə gərginlik aradan qaldırılır.

Üçüncüsü, işğaldan azad olunmuş ərazilərin minalardan təmizləmə, itkin düşmüş şəxslərin tapılması, eləcədə quruculuq işlərində Avropa İttifaqı tərəfindən Azərbaycana dəstək göstərilməsi də nəzərdə tutulur.

Dördüncüsü, nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yaradılması, dəmir yolu və avtomobil yolunun çəkilməsi, İqtisadi Məşvərət Şurası mexanizminin yaradılması qərara alınıb.

Nəhayət, tarixin arxivinə göndərilən "Dağlıq Qarabağ", "münaqişə", "status" kimi lazımsız və aktuallığını itirmiş ifadələrə və ya keçmişin qalığı olan ATƏT-in Minsk Qrupu həmsədrlik institutuna istinad yoxdur. Sözügedən fakt onu göstərir ki, Avropa İttifaqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində yaranmış yeni reallığa əsaslanır.

Bütün bunlar bir daha onu sübut edir ki, danışıqlar tam olaraq Azərbaycanın diqtəsi və maraqları əsasında aparılmışdır. Artıq Azərbaycanın yaratdığı reallıqlar əsasında "Brüssel Sülh Gündəliyi" və "Sülh danışıqlarının Brüssel formatı" formalaşmışdır. Əlbəttə, həm Ermənistanda mövcud revanşist qüvvələr, həm də Cənubi Qafqazda daimi sülhün və barışın olmasını istəməyən üçüncü tərəf danışıqların Brüssel formatını və Brüssel sülh gündəliyini hər vəchlə zədələməyə, əldə olunan razılaşmanı pozmağa çalışacaqlar.

Lakin bu sülh gündəliyinin pozulmasına Avropa İttifaqı imkan verməz və rəsmi Brüssel regionda yaranmış tarixi fürsəti qaçırmayaraq başlatdığı təşəbbüsü regionun lider dövləti olan Azərbaycanın köməyi ilə sona çatdırmağa çalışacaq. Bunun üçün, ilk növbədə, tarixi imkan və şərait mövcuddur. Üstəlik, Avropa İttifaqının praqmatik dövlət başçısı kimi dünyada böyük hörmət və nüfuz qazanmış, regionda yeni geosiyasi vəziyyət yaratmış müzəffər lider İlham Əliyev kimi güclü və etibarlı tərəfdaşı var. Odur ki, Azərbaycanın yaratdığı Brüssel sülh gündəliyi hədəfinə yetişəcək.

***Azay QULİYEV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 12 aprel.- S.8.